


# Nəsillər dəyişir, ümidlər sönmür, qayıdış inamı güclənir

***Yurd itkisi, beşik ağrısı, söndürülmüş ata ocağı, uşaqlığımızı, nəfəsimizi öz divarlarında yaşadan evlərimizin uçurulmuş qalıqları, bir-birinə doğma olan qohum-əqrəbanın, mehriban qonşuların ayrı düşməsi, doğulub boya-başa çatdığın kənddən qovulmuş xatirələr düşmənin vurduğu ən ağır mənəvi yara kimi uzun illər ərzində bizi göynətdi, sızıldatdı, ancaq yıxa bilmədi, dözdük, ümidimizi və inamımızı itirmədik. Vətən, torpaq, yurd, ocaq, bayraq Azərbaycan xalqının ən müqəddəs dəyərləri, mənəvi keyfiyyətidir, bu qiymətli ənənələr nəsildən-nəslə ötürülür, varlığına, taleyinə dəyən zərbələr nə qədər ağrılı və sarsıdıcı olsa da sınmayıb, əyilməyib, qamətini şux saxlayıb.***

Torpağının üstü də, altı da sərvət olan Odlar Yurdu həmişə düşmənlərə gözdağı olub, məmləkətimiz iki əsr ərzində dəfələrlə təcavüzə, işğala, deportasiyaya, etnik təmizləməyə məruz qalıb. Yüz minlərlə azərbaycanlı doğma torpağından didərgin salınıb, yurdu, evi zorla, hiyləylə əlindən alınsa da bu xalq heç zaman büdrəməyib, düşmən qarşısında baş əyməyib, yadelli işğalçılara qarşı mübarizəyə qalxıb, qan tökərək, şəhid verərək şərəfini, ləyaqətini özünə qaytarıb. 44 günlük Vətən müharibəsi xalqımızın çoxəsrlik mübarizəsinin ən uca zirvəsidir, savaş meydanında qazanılan tarixi qələbə nəticəsində torpaqlarımızın işğalçılardan azad edilməsi haqqın, ədalətin təntənəsi oldu. Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman oğullarımız qana-qan, qisasa-qisas hayqıraraq keçilməz sədləri keçdilər, sıldırım, sərt qayaları aşdılar, yarğanlardan şığıyıb keçdilər, can qurban verərək iki yüz illik erməni işğalını dayandırdılar. Ermənistan məğlub edildi, ordusu yararsız vəziyyətə salındı, hərbi texnikaları sıradan çıxarıldı, əlbəyaxa döyüşdə düşmən diz üstə çökdürüldü.

Müharibədən sonra aşkar edilən kütləvi məzarlıqlar bir daha onu göstərdi ki, ermənilər insani dəyərlərdən çox uzaqdırlar, onların mahiyyətində daşnak ideyaları və faşizm dərin kök salıb, türkə qarşı düşmənçilik ermənilərin xəstə təfəkküründən, idbar xislətindən xəbər verir. Bir sözlə, ermənilərin azərbaycanlılara qarşı törətdikləri deportasiya və soyqırımı yaraları iki yüz ildən çoxdur ki, qaysaq bağlaya bilmirdi, itkin düşən doğmalarını axtaran insanların kədəri və faciəsi təhlükəli, hiyləgər düşmənin qaniçən obrazını aydın şəkildə ifşa edirdi, ermənilərin necə təhlükəli olduğu haqqında həqiqətləri dünyaya çatdırırdı. Zamanın ziddiyyətləri, taleyinə vurulan zərbələr azərbaycanlıları gəlimli, gedimli dünyanın ən dözümlü, mübariz, haqqına sahib çıxan, işğala və hərbi təcavüzə igidliklə son qoyan bir xalq kimi ucaldıb. Nəsildən-nəslə ötürülən qəhrəmanlıq ənənələri, mənəvi-əxlaqi keyfiyyətlər, tarixin ibrət dərsləri, kökə bağlılıq, tolerantlıq, ağsaqqal və ağbirçəyə hörmət, təkamülə, inkişafa can atmaq xalqımızın sınaqlardan çıxan ən dəyərli keyfiyyətidir. Azərbaycanın o taylı, bu taylı torpaqları, İrəvan, Borçalı mahallarındakı yurd yerlərinin hər qarışı qədim tariximizi yaşadır, torpağın bağrından çıxan kurqanlar, ən qədim dövrləri əks etdirən müxtəlif daş kitabələr, fiqurlar, əmək və döyüş alətləri tariximizin dərin qatlarını əks etdirir. Həmin ərazilərdə mövcud olmuş, lakin adı silinən toponimlərin, saysız-hesabsız yeraltı və yerüstü maddi mədəniyyət nümunələri - qədim yaşayış məskənləri, nekropollar, kurqanlar, qala, saray və istehkam qalıqları, karvansaralar, körpülər, qəbirüstü sənduqələr, xaçdaşlar, at-qoç heykəlləri, məbəd, kilsə, məscid, pir və ocaqların üzə çıxarılması, həmin ərazinin təmiz Oğuz-türk məskənləri olduğunu təsdiq edən yüzlərlə faktı ehtiva edir.

Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə dövlətimizin başçısı İlham Əliyev dünyaya bir çox mesajlar verdi və bunlardan ən önəmlisi Qərbi Azərbaycanla bağlı oldu. Prezident bildirdi ki, iki il bundan əvvəl biz öz tarixi missiyamızı şərəflə yerinə yetirərək ədaləti bərpa etdik, düşmənləri torpaqlarımızdan qovduq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bu gün azad edilmiş torpaqlarda yaşayırıq, qururuq, yaradırıq, dağıntıları aradan qaldırırıq və dünyaya göstərməyə çalışırıq ki, gəlin, baxın, gözlərinizi açın, bu vəhşilikləri törədən sizin sevimli erməni xalqıdır. Bu cinayətləri hansısa yad planetdən gələnlər yox, sizin sevimli və himayəniz altında olan erməni xalqı törədib, məscidləri dağıdıb, tarixi abidələri dağıdıb, qəbirləri dağıdıb, olmazın vəhşiliklər edib. Eynisini onlar Qərbi Azərbaycanda da ediblər. Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur.

Qeyd edək ki, erməni vəhşiliyi nəticəsində Qərbi Azərbaycanda ağlasığmaz qırğınlar törədilib, azərbaycanlılar öz doğma torpaqlarından deportasiya edilib, yüzlərlə kənd dağıdılıb, yaşayış məntəqələri xarabalığa çevrilib. Qərbi Azərbaycan torpaqları tarixin və zamanın gərdişi nəticəsində və keçmiş sovet hökumətinin ədalətsiz qərarları ilə yadelli ermənilərə verilib. Həmin torpaqlara yerləşəndən sonra ermənilər azərbaycanlılara qarşı təxribat törədiblər, xəyanət ediblər, xalqımızın qonaqpərvərliyindən, səmimiyyətindən sui-istifadə edərək hiyləgərliklə qədim yer-yurd adlarını dəyişiblər, mənəvi basqı yaradıblar. Düşmənlərimiz fitnə-fəsadla, şər-böhtanla, hiyləgərliklə, min-bir oyun qurdular, elə bildilər ki, bu eli öldürdülər, daha dirilən, dirçələn deyil. Yanıldılar... Sinəsindən və kürəyindən yaralanan bu el yenidən ayağa qalxa bildi, bütün haqsızlığa, deportasiyaya, faciələrə sinə gərdi, hər kəs ürəyində, qəlbində, bütün varlığında itirdiyi yurd yerlərini yaşatdı. Bizə beşik olmuş, qibləmizi, izimizi köksündə yaşadan doğma yurd haqqındakı xəyallarımızın, arzularımızın üstünə yenidən işıq düşür, Qərbi Azərbaycana qayıdış üçün çox önəmli işlərə başlanılıb. İnsanın doğulub boya-başa çatdığı torpaq ona çox əzizdir, harada yaşamağından asılı olmayaraq o doğulduğu eli, obanı, ev-eşiyini heç zaman unuda bilmir.

**Qərbi Azərbaycanın Göyçə mahalının Çəmbərək rayonunun Ağbulaq kənd sakini Təvəkkül Nəsirov** o illəri xatırlayaraq deyib:

- Mağazalarda bizə heç nə satmırdılar. Çəmbərək rayonuna gedəndə satıcılara tapşırmışdılar ki, onlara heç nə satmayın. Artıq tədricən bizi sıxırdılar ki, biz öz elimizdən, öz evimizdən çıxaq. 1988-ci il noyabrın 26-sı idi. Xəbər gəldi ki, siz çıxmalısınız. Bu gecə ermənilər sizi qıracaq, biz sizi saxlaya bilməyəcəyik. Bu sözü eşidəndən sonra istər-istəməz vahiməyə düşdü. O vaxt təbii ki, minik maşınları az idi, bizi yük maşınlarına doldurdular. Biz Ardanış kəndindən keçib Şah dağına qalxdıq və oradan piyada Gədəbəyin İvanovka kəndinə, oradan Şəmkir rayonunun Günəşli kəndinə və sonra Bakı şəhərinə gəldik. Mən ora mütləq qayıtmaq istəyirəm. Qoy nəvələrim də orada yaşasınlar. Mən öz halal torpağımı, ev-eşiyimi orada qoyub gəlmişəmsə, ora niyə qayıtmayım?! Əminəm ki, biz o kəndə qayıdacağıq. Qayıdan kimi, ilk növbədə, gedib babalarımın qəbrini ziyarət edəcəyəm, bulaqların suyundan içəcəyəm. Allah Prezidentimizin canını sağ eləsin, Qarabağ alındısa, Göyçə ondan daha asan alınar. İnşallah biz bunu görəcəyik.

**Türkiyənin Qazi Universitetinin rektoru, professor Musa Yıldız** deyib:

- Qərbi Azərbaycan əzəli Azərbaycan torpağıdır, bu torpaqların sakinləri gec-tez öz yurd-yuvalarına geri qayıdacaqlar. Bu, onların halal haqqıdır. Azərbaycan Prezidenti güclü liderdir. O, verdiyi sözlərə sadiqdir. Qərbi Azərbaycana Qayıdış Konsepsiyanı müəyyən edibsə, deməli, bu ideya reallaşacaq.

**Hacəttəpə Universitetinin rektoru, professor Mehmet Cahit Güran:**

- Qərbi Azərbaycan torpaqları yüz illər boyunca azərbaycanlıların yaşadıqları ərazilər olub. Ermənistan tərəfindən zaman-zaman aparılan deportasiya siyasəti azərbaycanlıları öz torpaqlarından didərgin salıb, hüquqları tapdalanır. Bu gün "iki dövlət, bir millət, tək yumruq" müstəvisində bölgədə yeni güc yaranıb. Bu güc bizi Qarabağ Zəfərinə qovuşdurdu. Əminik ki, yeni reallıqlar Qərbi azərbaycanlı soydaşlarımızın da hüququnu bərpa edəcək, onlar öz doğma yurdlarına dönəcəklər.

2022-ci il dekabr ayının 24-də Prezident İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə ermənilərin törətdikləri tarixi haqsızlığı və cinayətləri geniş təhlil edərək bildirib ki, Qarabağda olduğu kimi, Qərbi Azərbaycanda da ermənilər Azərbaycan xalqına məxsus tarixi və mədəni irsi tam məhv ediblər. Buna baxmayaraq, tarixi sənədlər, xəritələr və digər dəlil-sübutlar dəqiq təsdiq edir ki, Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır. Hazırkı Ermənistanın yerləşdiyi ərazilərdə tarix boyu azərbaycanlılar yaşayıblar. Həmin ərazilərlə bağlı Azərbaycan xalqının tarixi yaddaşı mövcuddur və bu yaddaş soydaşlarımızı öz doğma tarixi torpaqlarına qaytaracaq. Qarabağın, Şərqi Zəngəzurun işğaldan azad edilməsi bizim digər milli ideyalarımızın həyata keçirilməsi üçün möhkəm zəmin yaratdı. Azərbaycanın güclü dövlət olduğu və onu yolundan döndərməyin mümkünsüzlüyü faktı qəbul olundu. Beləliklə, dəfələrlə deportasiyalara məruz qalmış Qərbi Azərbaycandan olan soydaşlarımızın hüquqları bərpa edilməlidir və onlar öz tarixi torpaqlarına qayıtmalıdırlar. Həmin görüşdə dövlət başçısı daha mühüm bir məqama toxunaraq deyib: *"Bildiyiniz kimi, Azərbaycan Qaçqınlar Cəmiyyəti Qərbi Azərbaycan İcmasına çevrilmişdir və mən hesab etdim ki, ən düzgün yer, ən düzgün qərargah məhz bu bina olmalıdır. Təkcə ona görə yox ki, bu, çox gözəl binadır, dördmərtəbəlidir və burada fəaliyyət göstərmək üçün bütün imkanlar var, Heydər Əliyev Mərkəzi ilə demək olar ki, üzbəüz yerləşir. Əsas səbəb o idi ki, burada vaxtilə yerləşmiş Qarabağın məcburi köçkünlər icması artıq öz torpaqlarına qayıdır. Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar"*.

Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanması düşməndə təlaş, ruh düşkünlüyü yaradıb. Nəsillər dəyişir, ancaq yurda qayıdış məqsədi, doğma ellərə qovuşmaq arzusu, əzəli torpaqlara köç havası isə heç zaman dəyişməyib. Nəzərlərimiz Göyçəyə, Dərələyəzə, İrəvana, Vediyə, Qafana, Amasiyaya, Gorusa və digər yurd yerlərinə dikilib, xəyallarımız isə artıq o yerlərdə dolaşır, Qarabağa qayıtdığımız kimi, Qərbi Azərbaycana da qayıdacağıq. Qarabağ Fatehi, Qalib Ali Baş Komandan, xalqının yenilməz Lideri bu inamı yaradıb.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika.- 2024.- 3 dekabr (№ 266).- S.8.